# “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Qanun”a əsasən yeni iqtisadi subyektlər və fəaliyyət növləri

AzFina
Azərbaycan Fintex Assosiasiyası

# Ödəniş xidmətlərinin təchizatçıları aşağıdakılardır:

- Mərkəzi Bank;
- Banklar və xarici bankların yerli filialları;
- “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fəaliyyət göstərən bank olmayan kredit təşkilatları;
- Poçt rabitəsinin milli operatoru;
- Ödəniş təşkilatları;
- Elektron pul təşkilatları.

AzFina
Azərbaycan Fintex Assosiasiyası

# Ödəniş xidmətlərinin klassifikasiyası

**Lisenziya əsasında göstərilən xidmətlər:**

- ödəniş hesabı üzrə pul vəsaitinin nağd formada mədaxili və (və ya) məxarici əməliyyatlarının aparılması;
- Kredit köçürməsi, birbaşa debitləşmə, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının icrası;
- ödəniş alətlərinin emissiyası və (və ya) ödəniş əməliyyatının ekvayrinqi;
- pul köçürməsi;
- elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası;
- ödəniş əməliyyatlarının aparılması üçün vasitəçilik xidməti.

**Qeydiyyat əsasında göstərilən ödəniş xidməti:**

- hesab üzrə məlumat xidməti.

AzFina
Azərbaycan Fintex Assosiasiyası

# Yeni ödəniş xidməti təchizatçıları

### Elektron pul təşkilatı

Elektron pulu emissiya və elektron pul ilə əlaqəli ödəniş əməliyyatlarını icra edən, eyni zamanda lisenziyasında nəzərdə tutulduğu halda digər ödəniş xidmətlərini həyata keçirmək hüququ olan hüquqi şəxs;

### Ödəniş təşkilatı

Elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası istisna olmaqla, digər ödəniş xidmətlərini məcmu halda və ya ayrı-ayrılıqda göstərən hüquqi şəxs;

### Hesab üzrə məlumat xidməti təchizatçısı

Ödəniş xidməti istifadəçisinin bir və ya bir neçə digər ödəniş xidməti təchizatçısı tərəfindən xidmət olunan ödəniş hesabları üzrə məlumatların onlayn təqdim edilməsi xidmətini göstərən ödəniş xidməti təchizatçısı;

### Vasitəçi

Ödəniş xidməti istifadəçisinin müraciəti əsasında onun digər ödəniş xidməti təchizatçısında açılmış ödəniş hesabı üzrə ödəniş sərəncamının verilməsi üzrə vasitəçilik xidmətini göstərən ödəniş xidməti təchizatçısı.

***Qeyd**: Hesab üzrə məlumat xidməti təchizatçısı və vasitəçi qanuna əsasən ödəniş təşkilatı və ya elektron pul təşkilatıdır.*

AzFina
Azərbaycan Fintex Assosiasiyası

# Ödəniş xidməti təchizatçılarının əlavə fəaliyyət növləri:




- Ödəniş sərəncamının icrası üçün Mərkəzi Bankın müəyyən etdiyi qaydada valyuta mübadiləsi fəaliyyəti (müstəsna olaraq Qanunun 3.1.6-cı və (və ya) 3.1.7-ci maddələrində göstərilən ödəniş xidmətlərini göstərən ödəniş təşkilatları istisna olmaqla);
- Kredit köçürməsi, birbaşa debitləşmə, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının aparılması üçün Mərkəzi Bankın müəyyən etdiyi qaydada və tələblər daxilində ödəniş xidməti istifadəçilərinə onlarla razılaşdırılmış şərtlərlə kreditlərin verilməsi;
- Göstərdiyi ödəniş xidməti ilə birbaşa bağlı olan pulların saxlanılması, daşınması, məlumatların saxlanılması, emalı və ötürülməsi;
- Bu Qanunla müəyyən edilmiş qaydada alınmış lisenziya əsasında ödəniş sistemi operatoru fəaliyyəti, habelə ödəniş kartlarının emissiyasına və ekvayrinqinə texniki xidmət göstərilməsi fəaliyyəti;
- Ödəniş xidmətləri ilə bağlı təlimlərin təşkili və məsləhət xidmətləri, habelə proqram təminatlarının hazırlanması.

AzFina
Azərbaycan Fintex Assosiasiyası

# Ödəniş sistemi operatoru və ödəniş sistemləri



Ödəniş sistemi operatoru – ödəniş sisteminin fəaliyyətini təşkil edən və həmin sistemin qaydalarını müəyyən edən şəxsdir.

Ödəniş sistemi – ödəniş əməliyyatlarının emalı, klirinqi və (və ya) hesablaşmaların aparılması üzrə rəsmiləşdirilmiş və standartlaşdırılmış ümumi mexanizm və qaydalara malik, üç və daha artıq iştirakçının üzv olduğu pul vəsaitinin köçürülməsi sistemidir.

AzFina